# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNƏ APARAN YOL




XX əsr bəşər tarixinə təkcə elm, texnika, böyük kəşflər əsri kimi daxil olmamışdır. XX əsr bəşər tarixinə həm də xalqların, millətlərin oyanışı, özünü dərk etməsi, milli-azadlıq hərəkatının vüsət alması, nəticədə milli dövlətlərin meydana gəlməsi, yaranması əsri kimi də daxil olmuşdur.

Azərbaycan xalqının cox qədim tarixinə nəzər saldıqda aydın olur ki, xalqımız daima tərəqqiyə, yeniliyə, azadlığa can atmış, öz tarixinə şanlı səhifələr yazmışdır.

Ötən - XX əsrin əvvəlləri Çar Rusiyasının ucqarlarından biri olan Azərbaycanda da dirçəliş, milli şüurun artması, azadlıq, müstəqillik meyillərinin güclənməsi baş verdi. Əlbəttə bu işdə Azərbaycanın ziyalı oğulları, mütəfəkkir, inqilabi təfəkkürlü insanları öndə gedərək, xalqı, azərbaycanlıları, ümumilikdə bütün türk, müsəlman dünyasını birləşməyə, öz bəşəri haqlarını müdafiəyə səsləyirdilər.

Böyük Mirzə Ələkbər Sabirin təbirincə desək, əsr (XX əsr) bizləri, həm də bütün Şərqi dindirir, ayağa qalxmağa sövq edirdi.

XX əsrin əvvəllərində "xalqların həbs düşərgəsi" adlanan Rusiya imperiyası dərin hərbi, siyasi və iqtisadi böhran keçirirdi. Böhrandan qurtarmaq üçün çarizm müxtəlif islahatlar keçirməyə, bu yolla uçurumlu vəziyyətdən qurtarmağa çalışırdı. Ancaq ölkəni səfalətdən, çaxnaşmadan heç cürə çıxara bilmirdi. 1905-ci il Rus inqilabı Rusiya çarizmini kökündən bir daha laxlatdı. Belə bir şəraitdə Azərbaycan ziyalıları, inqilabçıları (istər bolşevik, istər müsavatçı və s. olsun) milli, zamanın irəli sürdüyü taleyüklü məsələlərə müasir gözlə baxaraq yeni tələblər irəli sürdülər. Belə tələblər siyahısına ölkənin bütün xalqlarının imperiyanın mərkəzi hakimiyyət orqanlarında təmsil olunması, həmçinin yerli idarəçilikdə və məhkəmə orqanlarında çalışmağa cəlb olunmaları, bu işdə ayrı-seçkiliyə (milli mənsubiyyətinə görə) yol verilməməsi daxil idi.

O dövrdə Azərbaycanın görkəmli şəxsiyyətləri Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Ədilxan Ziyadxanov və b. bu hərəkatın önündə gedirdilər.

Fəxarətlə qeyd edə bilərik ki, Rusiya imperiyasının bütün türk-müsəlman əhalisini çarizmə qarşı birləşdirmək və bu məqsədlə vahid siyasi təşkilat yaratmaq ideyası da məhz Azərbaycanda doğulmuşdu.

1905-ci ildə Ümumrusiya müsəlmanlarının Nijninovqorodda keçirilmiş birinci qurultayında "Rusiya imperiyasında türklərin vəziyyəti problemləri"nə həsr olunmuş əsas məruzə ilə məhz Azərbaycan nümayəndəsi Ə.B.Topçubaşov çıxış etmişdi.

Birinci dünya müharibəsi Rusiyaya görünməmiş fəlakətlər gətirdi və bu da çarizmi çox çətin vəziyyətə saldı. Xalqın iqtisadi vəziyyəti görünməz dərəcədə ağırlaşdı, insanların səbr kasası doldu və ölkədə inqilabi şərait yarandı. Nəticədə 1917-ci il fevralın 28-də Rusiyada burjua demokratik inqilabı baş verdi. 300 ildən artıq hökmranlıq edən romanovlar sülaləsinə son qoydu. Həmin gün də knyaz Lvovun başçılığı ilə Rusiyada müvəqqəti inqilabi hökumət yaradıldı. Fevral inqilabı çar monarxiyasını devirməklə yanaşı imperiya ənənələrinə də ağır zərbə endirdi. Rusiyada milli-azadlıq hərəkatına şərait yaratdı. İnqilabın ilk əks-sədası Zaqafqaziyada da hiss edilməyə başladı və sonrakı dövrdə hadisələrin özünəməxsus inkişafına əsaslı təkan verdi. Müvəqqəti hökumətin ilk addımlarından biri Zaqafqaziyada da vəziyyəti sabitləşdirməyə yönəldilmişdi. Bu məqsədlə martın 9-da Müvəqqəti hökumətin qərarı ilə Xüsusi Zaqafqaziya Komitəsi təşkil edildi. Bu komitə Zaqafqaziyanı idarəetmək üçün yaradılmışdı. Martın 18-də komitə rəsmi olaraq işə başladı.

Çox keçmədi Azərbaycanın şəhər və qəza mərkəzlərində komitənin fəaliyyətini həyata keçirmək üçün icraiyyə komitələri yaradıldı.

1917-ci ilin sonlarında müsəlman ictimai təşkilatları Müvəqqəti Komitənin Milli bürosuna M.Hacınski, M.A.Əlizadə, M.Ə.Əsədullayev, B.X.Cavanşir, M.Ə.Rəsulzadə və b. icraiyyə komitəsinə isə Ə.B.Topçubaşov, F.X.Xoyski, N.Nərimanov və Ə.Əmiraslanov daxil edilmişlər.

Böyük bit həqiqətdir ki, məhz fevral inqilabından sonra milli-azadlıq hərəkatının genişlənməsində və güclənməsində Müvəqqəti hökumət tərəfindən imperiyanın ucqarlarında da bəzi azadlıqların verilməsiydi. Bu dövrdən başlayaraq imperiyanın hər yerində, o cümlədən Azərbaycanda da siyasi partiyalar leqal fəaliyyətə başladılar.

Dediklərimizdən aydın olur ki, Azərbaycan Cümhuriyyətinə gedən yol 1917-ci ilin əvvəllərindən başlayaraq Rusiyada cərəyan edən hadisələrlə sıx surətdə bağlı olmuşdur.

1917-ci il aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanlarının I Qurultayı türk xalqlarının siyasi istiqaməti və taleyi baxımından uğurlu addım oldu.

Quraltayda M.Ə.Rəsulzadə ərazi muxtariyyəti haqqında danışdı. Qurultay müsəlman vilayətlərinə muxtariyyət verilməsi haqqında xüsusi qərar qəbul etdi.

Bir qədər sonra, yəni 1917-ci il mayın 1-dən 11-dək Moskvada Ümumrusiya müsəlmanlarının qurultayı keçirildi. Qurultaya 500 nəfər əvəzinə 900-ə yaxın nümayəndə gəlmişdi. Qurultayda milli-məhəlli muxtariyyət məsələsi M.Ə.Rəsulzadənin təklifi ilə qəbul edildi. Deməli fevral inqilabından əvvəl və sonra da milli azlıqların nümayəndələri ancaq milli-mədəni (sonralar ərazi muxtariyyəti də səslənməyə başladı – M.Q.) muxtariyyətlə kifayətlənirdilər...

Ancaq zamanın lokamativi çox keçmədi yeni və gözlənilməz hadisələr baş verdi...

Oktyabr sosialist inqilabının qələbəsi Rusiyada xalqların milli müstəqilliyə ümidlərini daha da artırdı. İnqilabın ilk günlərində V.İ.Lenin tərəfindən imzalanmış sülh və "Rusiya xalqlarının hüquq bəyannaməsi" dekretlər keçmiş imperiyaya daxil olan xalqların azad surətdə ayrılıb öz müqəddəratlarını, habelə müstəqil dövlətlərini yaratmaq üçün hüquqi təminat verirdi. Lakin onu da demək lazımdır ki, milli əyalətlərin bir çoxu Petroqraddakı Xalq Komissarlar Sovetini tanımadıqlarını bəyan etdilər. O, cümlədən Zaqafqaziyanın Xüsusi İdarə Komitəsi də belə bir addım atdı.

1917-ci ilin noyabr ayının 14-də Zaqafqaziyanı idarə etmək üçün Tiflisdə Zaqafqaziya Komissarlığı təsis edildi. Komissarlığa gürcü menşeviki E.P.Gekeçkori sədr seçilmişdi. Zaqafqaziyanın hər üç xalqı bu komissarlıqda təmsil olunurdu. Belə ki, A.İ.Çxengeli – daxili işlər nazirliyinə, D.Ə.Donçki - hərbi nazirliyə, F.X.Xoyski – maarif nazirliyinə, Ş.V.Alekseyev–Mesxiyev - ədliyyə nazirliyinə, M.Y.Cəfərov – ticarət və sənaye nazirliyinə, X.B.Melik-Aslanov yollar nazirliyinə, X.B.Xasməmmədov – qanunların həyata keçirilməsinə nəzarət nazirliyinə, A.V.Neruçev - əkinçilik dövlət əmlakı və dini işlər nazirliyinə, X.O.Korçikyan – maliyyə nazirliyinə, A.İ.Ohancanyan – himayəçilik nazirliyinə rəhbərlik edirdi. Əmək və Xarici işlər nazirliyi E.P.Gekeçkorinin səlahiyyətindəydi.

1918-ci il fevral ayının 10-da Zaqafqaziya Seymi yaradıldı. Zaqafqaziyadan Rusiya müəssislər məclisinə seçilmiş bütün siyasi partiyaların nümayəndələri Seymdə təmsil olunurdular. Bunlardan 32 nəfəri gürcü menşevik partiyasının, 30 nəfər Müsavat partiyasının, 27 nəfər daşnak partiyasının, 19 nəfər eserlərin nümayəndəsi idi. Bununla birlikdə Seymdə sosial federalistlər, müsəlman iddihadçıları və gürcü milli demokratları da yer almışdılar.

Seym özünün ilk iclaslarında rus hərbi hissələrinin Zaqafqaziyadan çıxarılmasını, onun yerinə milli hərbi dəstələrinin yerləşdirilməsi məsələsini təsdiq etdi. Seymin erməni deputatlarının separatçılığı nəticəsində Zaqafqaziyada sülh yaratmaq məsələsi uzandı. Türklər tərəfindən tutulmuş (o vaxt Qafqazda Türkiyənin üstünlüyü vardı – M.Q.). Batum şəhərində aparılan danışıqlarda Seymin müsəlman qrupu Turkiyənin tərəfini saxladı.

Aprelin 22-də Müsavat partiyasının sədri M.Ə.Rəsulzadənin səyi nəticəsində Zaqafqaziya müstəqil demokratik, federativ respublikası elan edildi. Ancaq bununla belə Seym bir çox məsələləri – Zaqafqaziya xalqlarının nə işçi, nə aqrar, nə də milli problemlərini həll edə bilmədi.

Getdikcə Seymdə qarşıdurmalar dərinləşdi.

Bu dövrdə Azərbaycanda çox ciddi hadisələr baş verirdi. Belə ki, 1918-ci ilin 31 Mart hadisələri xalqı çox həyacanlandırmışdı. Bir tərəfdən türklər tərəfindən təkqulaq edilmiş Andronik, bir tərəfdən isə bolşevik mundirinə bürünmüş S.Şaumyan Azərbaycanda soyqırım törətdilər. Aprelin 25-də İ.Stalinin bolşevik köməyi ilə, Bakıda daşnak S.Şaumyanın köməyi ilə Bakı Xalq Komissarları Soveti yaradıldı. Ancaq bu hakimiyyətin sosial arxası yox idi. Yerli xalq gəlmələrin hakimiyyətini qəbul etmədi...

May ayının son ongünlüyündə Zaqafqaziya Seyminin dağılması prosesi gücləndi. Mayın 26-da gürcü fraksiyası Seymdən çıxdıqlarını və özlərinin müstəqil dövlətlərini yaradacaqlarını elan etdilər.

Mayın 27-də Seymin müsəlman fraksiyası da Azərbaycanın müstəqilliyinin elan edilməsi və Milli Şura yaradılması haqqında qərar qəbul etdilər.

Azərbaycan dövlətçiliyi tarixində 1918-ci il 28 may günü böyük hadisəydi.

O vaxt zaman məsələni belə qoymuşdu: ya sən öz dövlətinin müstəqilliyini elan etməlisən, ya da vətəninin parçalanıb qonşu dövlətlərin əlavəsinə çevrilməsini gözləməlisən. O vaxt bir tərəfdən İran, bir tərəfdən Türkiyə, şimaldan Rusiya, Gürcüstan, hətta heç bir dövlət ərazisi olmayan ermənilər də Azərbaycandan torpaq "payı" umurdular. Sovet Rusiyası keçmiş Rusiya imperiyasının tərkibində olan xalqlara "öz müqəddəratlarını təyin etmək hüququ haqqında" bəyannamə versə də, Bakını əldən vermək istəmirdi.

Belə şəraitdə Azərbaycanın 44 nəfər vətənpərvər övlad xalqın şərəf və ləyaqətini qoruyub saxlaya bildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev AXC-nin 2018-ci il 28 mayda 100 illiyinin qeyd edilməsi üçün qərar qəbul etmişdir. Bu gün memarı böyük azərbaycanlı Heydər Əliyev olan müstəqil Azərbaycan Respublikası 100 il bundan əvvəl Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi yaşayır və inkişaf edir.



***Musa Quluzadə,***
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix üzrə elmlər doktoru, Əməkdar müəllim*